Azərbaycan Dövlət İqtisad Universiteti

İQTİSADÇI

Azərbaycan Dövlət İqtisad Universiteti
Azerbaijan State University of Economics
Азербайджанский Государственный Экономический Университет

№86 (866)
Mart 2016

UNEC Azərbaycan Dövlət İqtisad Universitetinin brendidir

Martın 15-də universitetimizin adını brendləşdirmək, tanıtmaq məqsədilə media nümayəndələri qarşısında təqdimat mərasimi keçirildi. Universitetin rektoru professor Ədalət Muradov media nümayəndələrini salamlayaraq tədbirdə iştirak edən hər kəsi xalqımızın milli adət-ənənələrini özündə əks etdirən Novruz bayramının axirinci ilaxır çərşənbəsi günü münasibətilə səmimi-qəlbdən təbrik edib, onlara can sağlığı, ruzi bərəkət arzulayıb.

Təqdimatla çıxış edən rektor bildirib ki, prezident İlhan Əliyevin 18 yanvar 2016-cı ildə "Qeyri neft" məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında imzaladığı sərəncamda "Made in Azerbaijan" brendinin dünya bazarında tanınması ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsinə dair tapşırıq verib. Sərəncamın tətbiqinə ali təhsil müəssisələri səviyyəsində dəstək vermək məqsədilə Azərbaycan təhsil məkanında ilk dəfə olaraq universitetin brendləşdirilməsini həyata keçirdik. Bununla da Azərbaycan ali təhsil müəssisəsinin brendini dünya təhsil xidmətləri bazarında tanıtmaq iddiasındayıq.

Təhsil sektorunun dünya iqtisadiyyatının ən dinamik inkişaf edən sahələrindən biri olduğunu bildirən rektor, bir sıra ali təhsil müəssisələrinin əldə etdiyi gəlirlərin böyük dövlətlərin təhsilə ayırdığı xərclərin həcmindən çox oldu-diqqətə çatdırıb. Dünyanın tanınmış universitetləri həmin ölkələrin iqtisadiyyatının innovativ katalizatoruna çevrilib.

Təhsil sektoru həm də xidmətlər bazarının çox vacib tərkib hissəsidir. Bu sektorun ən fəal iştirakçıları universitetlərdir. Biz reğional və dünya təhsil xidmətləri bazarına girərkən ciddi rəqabətlə üzləşmişik. Bu rəqabətdə tanınmaq və seçilmək üçün iştirakçılar mütləq brendləşməlidir. Insan kapitalı hazırlamaq iddiasında

olan universitetin öz nişanı olmalıdır.

Azərbaycan Dövlət İqtisad Universiteti de-fakto brendləşib. "Narxoz" və başqa adlar cəmiyyətdə universitetin mənfi obrazıdır. De-yure olaraq isə Azərbaycan Dövlət İqtisad Universitetiindi qanunvericiliyə uyğun olaraq brendləşib. Standartlaşdırma, Metroloğiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən yanvarın 21-də rəsmi qeydiyyata alınıb. Brend təsdiqlənərkən Standartlaşdırma, Metroloğiya və Patent üzrə Dövlət Komitəsi xüsusi təsnifatın 41-ci sinfini əsas götürərək – tərbiyə etmə, tədris prosesinin təmin edilməsi, əyləncələr, idman və mədəni-maarif tədbirlərinin təşkili, ikinci isə 42-ci sinif – elmi və texnoloji xidmətlər və onlara aid elmi və texnoloji tədqiqatlar və işləmələr, sənaye analizi və elmi tədqiqatlar üzrə xidmətlər, kompüterlərin texniki və proqram təminatının işlənməsi və təkmilləşdirilməsi əsas götürülüb. Universitetin brendi UNEC-dir (Uiversity of Economy). Biz bütün dillərdə UNEC kimi təmsil olunmaq istəyirik. Brend o demək deyil ki, biz universitetimizin adini dəyişirik. Bu, bizim səlahiyyətimizdə deyil. Brend həm də abbreviatura deyil. Azərbaycan dilində ADİU, rus dilində АГЭУ, ingilis dilində ASUS abbreviaturalardır.

Tədbir iştirakçıları universitetin brendləşdirilməsini yüksək qiymətləndirərək, bunun Azərbaycanda təhsilin keyfiyyətinin daha da artmasında xüsusi önəmini vurğulayıblar. Sonda rektor jurnalistlərin suallarını cavablandırıb.

Azərbaycan multikulturalizmi modeli UNEC-də öyrənilir

Multikulturalizm anlayışı dünya siyasətində gənc bir anlayış olmasına baxmayaraq, bu siyasətlə bağlı müxtəlif fərqli fikirlər və fikir ayrılıqları mövcuddur. Bir sıra dövlətlər bu siyasəti dövlət siyasəti kimi həyata keçirir və onun inkişafı üçün daim islahatlar aparırlar, digər qrup dövlətlər isə ümumiyyətlə multikulturalizm siyasətindən imtina edir və onun uğurlu gələcəyinin olmadığını iddia edirlər.

Multikulturalizm siyasətinin təməlində xalqların qarşılıqlı əməkdaşlığı, tolerantlıq ideyaları və münaqişələrə yol verməmək prinsipləri dayanır. Əsrlər boyu böyük mədəniyyətlərin qovuşduğu bir diyar olan Azərbaycanda müxtəlif xalqların və dinlərin nümayəndələri sülh və qarşılıqlı anlaşma şəraitində yaşamışdır. Multikulturalizm ideyaları ölkəmizdə əsrlər boyu formalaşsa da onun siyasi banisi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Son zamanlarda multikulturalizm siyasətinin aktuallığı fonunda 11 mart 2016-cı il tarixində Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) "Azərbaycanda Multikulturalizm və sosial iqtisadi inkişaf" mövzusunda dəyirmi masa keçirilib. Tədbirə UNEC-in professor-müəllim heyəti, universitetdə təhsil alan əcnəbi tələbələrlə yanaşı, ölkəmizin elm və təhsil müəssisələrinin nümayəndələri də qatılıb.

Tədbirdə çıxış edən Kommersiya fakültəsinin dekanı Mirağa Əhmədov 2016-cı ilin prezident İlham Əliyev tərəfindən "Multikulturalizm ili" elan olunmasının əhəmiyyətindən və universitetdə bununla bağlı görülmüş işlərdən ətraflı bəhs edib. Belə ki, universitetdə bütün ixtisaslar üzrə tədris planlarına "Multikulturalizmə giriş" və "Azərbaycan multikulturalizmi" fənni daxil edilərək, tələbə və magistrantlara tədris olunduğu vurğulanıbdır.

Bakı Slavyan Universitetinin Multikulturalizm kafedrasının müdiri Ülviyyə Abbasova hazırda 13 xarici və 28 yerli universitetdə "Azərbaycan multikulturalizmi", "Multikulturalizmə giriş" fənninin tədris olunduğunu diqqətə çatdırıb. Qeyd edib ki, kifayət qədər güclü akademik potensiala malik olan UNEC multikulturalizmin iqtisadi-elmi əsaslarının formalaşdırılmasında yardımçı ola bilər.

Daha sonra Dəyirmi masada Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin şöbə müdiri Hikmət Babayev, UNEC-in İqtisadiyyatın tənzimlənməsi kafedrasının müdiri professor Məhiş Əhmədov, "Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi" kafedrasının müdiri professor Əli Əlirzayev çıxış ediblər.

Dəyirmi masa müzakirələrlə davam edib.

Tələbələr arasında "Made in Azerbaijan" biznes ideya müsabiqəsinə start verilib

2016-cı il 18 yanvar tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" sərəncam imzalamışdır. Əsas məqsədlərindən biri də ixrac məhsulları sferasında Azərbaycanın öz brendini formalaşdırmaqdan ibarətdir.

Prezident İlham Əliyevin imzaladığı bu Sərəncamın tətbiqinə ali təhsil müəssisələri səviyyəsində dəstək vermək, tələbələr arasında sahibkarlıq fəaliyyətinə marağı təbliğ etmək məqsədi ilə 10 mart 2016-cı il tarixində Azərbaycan Respublikası Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, "Kapital Bank" ASC, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) və İnnovativ Biznes-İnkubatorun birgə təşkilatçılığı ilə tələbələr arasında "Made in Azerbaijan" biznes ideya müsabiqəsinə start verilib.

Təkcə UNEC-in tələbələrinin deyil bütün universitetlərin tələbələrinin qoşula biləcəyi müsabiqənin mükafat fondu birinci yerin qalibi üçün 1000 azn, ikinci yerin qalibi üçün 750, üçüncü yerin qalibi üçün isə 500 azn təşkil edəcəkdir.

Layihədə iştirak edəcək tələbələrdən aprel ayının 12-dək Sərəncamın və müsabiqənin hədəflərinə uyğun, kreativ və aktual olan, daxili bazara tətbiq olunması real və sadələşdirilmiş biznes plan ilə esse, təqdimat, video-çarx və digər formatda biznes ideyalarını elektron formatda biznesideya@unec.edu.az email ünvanına və ya http://unec.edu.az/biznes-ideya-2016/ səhifəsində istifadə etməklə təqdim etmələri tələb olunur.

19 aprel 2016-cı il tarixində isə müsabiqənin final mərhələsində Ekspert Şurası 6 finalçı arasından 3 qalib müəyyən edəcəkdir. Daha ətraflı məlumat üçün UNEC-in qaynar xətt (146-1-3) xidməti ilə əlaqə saxlaya bilərsiniz.

UNEC-də Novruz şənliyi

Əziz UNEC əməkdaşları!
Sizi xalqımızın milli adət-ənənələrini özündə əks etdirən
Novruz bayramı
münasibəti ilə təbrik edir, sizə uzun ömür, can sağlığı, ailə səadəti arzu edirik.

Martın 17-də UNEC-də 3-cü korpusunda Novruz bayramı münasibətilə müsabiqə-yarış oldu. Əmtəəşünaslıq, Kommersiya, Texnologiya və Dizayn fakültələrinin qatıldığı Novruz şənliyində universitetin rektoru, prorektorlar və digər məsul şəxslər də iştirak edirdilər.

Novruzu milli mənəvi dəyərlərimizin təcəssümü adlandıran rektor Ədalət Muradovun Əmtəəşünaslıq fakültəsinin həyətindəki tonqalı alovlandırması bayram ovqatını daha da artırdı. Rektor Novruz bayramı haqqında danışaraq bildirdi ki, bu bayram milli mənəvi dəyərlərimizin, yüksək bəşəri amalların rəmzi kimi nəsildən-nəsilə ötürülmüş, təkcə baharın gəlişinin, təbiətin oyanışının deyil, həm də xalqımızın əsrlərdən bəri formalaşmış gözəl adət-ənənələrinin təcəssümünə çevrilmişdir.

Çoxəsrlik mədəniyyətimizin parlaq güzgüsü olan bu böyük bayram insanlarda daim işıqlı sabaha, xoşbəxt gələcəyə inam yaradır, təbiətin bəxş etdiyi nemətləri qorumağı, onlardan səmərəli istifadə etməyi öyrədir. Xeyir-bərəkət bayramı olan Novruz Azərbaycan torpağında hər il sevilə-sevilə, böyük ruh yüksəkliyi ilə qeyd olunur, hər tərəfdə gur tonqallar alovlanır, xoşmərəmlı tədbirlər keçirilir, insanlar ən ülvi arzularını dilə gətirirlər. Novruz həm də birlik və həmrəylik bayramıdır, cəmiyyətimizin möhkəmlənməsi üçün sağlam təməllər yaradan misilsiz bir ənənədir.

Novruz yüksək bəşəri hissləri, ali dəyərləri təbliğ edir, buna görə də bu bayramın rəngarəng, şən, xoş əhval-ruhiyyəli mərasimləri milli mənsubiyyətindən asılı olmayaraq, bütün insanlar tərəfindən təqdir edilir.

Şənlikdə fakültələrin təşkil etdiyi xonça müsabiqəsi və güləş yarışları keçirildi. Müsabiqədə I, II, III yerləri tutmuş qaliblərə müxtəlif hədiyyələr təqdim olundu.

Novruz şənliyində Kommersiya fakültəsinin tələbələri müxtəlif səhnəciklər göstərdilər və universitetdə təhsil alan əcnəbi tələbələrin ifasında Azərbaycan musiqisi səsləndi.

TƏLƏBƏLƏRİMİZ "KİTAB AT" LAYİHƏSİNƏ QOŞULMUŞDUR

Novruz bayrami ərəfəsində UNEC-də silsilə tədbirlər həyata keçirilmişdir. Novruz atributlarını özündə əks etdirən bu tədbirlərdə tələbələr yüksək əhval-ruhiyyə ilə iştirak etmiş, xalqımızın milli adət-ənənələrinin qorunub saxlanılması istiqamətində bir sıra dəyərli layihələrlə çıxış etmişlər.

Martın 17-də UNEC-in dəstəyi,"İqtisadçı Tələbələrə Dəstək" İctimai Birliyinin təşkilatçılığı ilə könüllü olaraq 300 tələbəmiz yeni "Kitab at" layihəsinə qoşularaq 10 min kitab toplamış və əldə edilən kitabların Bakı, Abşeron, Gəncə rayonlarındakı evlərə hədiyyə olaraq paylanılacagı nəzərdə tutulmuşdur.

Layihənin Novruz bayramı ərəfəsində həyata keçirilməsi və məqsədi insanlarda tədricən unudulmaqda olan mütaliə mədəniyyətini inkişaf etdirmək və kitaba olan əvvəlki məhəbbəti gücləndirmək, gündəmə gətirməkdir.

"Kitab at "layihəsinin hər il Novruz günləri ərəfəsində keçirilməsi nəzərdə tutulur.

Əcnəbi tələbələrin bayram sərgüzəştləri

Martın 18-də universitetin yeməkxanasında alı təhsil ocağımızda təhsil alan əcnəbi tələbələrin Novruz şənliyi təşkil lunmuşdur. Əcnəbi tələbələrlə azərbaycanlı tələbələrin birgə təşkil etdiyi şənlikdə süfrələr bayramsayağı bəzədilmiş, süfrəyə şəkərbura, paxlava, badambura, müxtəlif şirniyyat növləri qoyulmuş, xonçalar, səmənilər və rəngarəng boyadılmış yumurtalar düzülmüşdü.

Süfrə arxasında oturmuş əcnəbi tələbələr bayram təamlarından daddıqca tələbələrimiz hər bir təam haqqında onlara məlumat verir, onları novruzun adət-ənənələri ilə tanış edirdilər.

Tələbələrin bayram şənliyi inanclar üzərində qurulmuşdu. Şənlik zamanı əcnəbi tələbələr də bizim gənclərə qoşularaq Kosa və Keçəl rolunda çıxış edir, yumurta döyüşdürürdülər.

Şənlikdə tələbə qızlar və oğlanlar milli geyimlərdə səhnəciklər göstərir, milli kişi və qadın geyimləri, ayaqqabıları haqqında ətraflı məlumat verirdilər. Həmin gün diqqət çəkən maraqli məqamlardan biri də dahi sənətkarımız Üzeyir Hacıbəyovun "Arşın mal alan" operettası əsasında hazırlanmış kiçik səhnəciklər oldu. Səhnəciklərdə bizim tələbələrimizlə birlikdə əcnəbi tələbələrin də iştirakı hər kəsdə yüksək əhval-ruhiyyə yaradırdı.

TƏLƏBƏLƏRİMİZ NOVRUZU QƏÇRƏŞDƏ QARŞILADILAR

Digər bir tədbiri isə UNEC-in tələbələri martın 20-də Qubanın Qəçrəş kəndində Tələbə Qənclər Təşkilatının rəhbərliyi ilə təşkil etmişdilər.

Orada kecirdikləri günlərini Novruz atributları ilə maraqlı edən tələbələrimiz günboyu Novruza aid kiçik səhnəciklər göstərmiş, rəqs nümunələri nümayiş etdirmiş, çatılmış tonqalın ətrafında xalqımızın birliyini özündə əks etdirən "Yallı" musiqisi ilə şənliklərini davam etdirmişlər.

Şənliyin sonunda UNEC-in tələbələri xatirə olaraq universitetin loqosu əks olunan plakat ətrafında şəkil çəkdirmişlər.

Tanış olun – yeni seçilmiş Tələbə Elmi Cəmiyyətinin sədri Əvəzağa Məlikov

Məlikov Əvəzağa Azər oğlu 1996-cı ilin noyabr ayının 8-də Bakı şəhərində anadan olub. Orta təhsilini Salyan rayonunun 1 saylı humanitar fənnlər təmayüllü məktəb-litseyində alıb. Əvəzağa Məlikov həmin litseyi əla qiymətlərlə başa vurduqdan sonra sənədlərini Azərbaycan Dövlət İqtisad Universitetinin "Maliyyə" fakültəsinə verir və universitetin tələbəsi adını qazanır...

Əvəzağa Məlikov bu gün artıq Universitet Tələbə Elmi Cəmiyyətinin sədridir. Onun bu müvəffəqiyyəti hər kəsi maraqlandırdığı kimi bizim də diqqətimizi çəkdi. Odur ki, Əvəzağanı redaksiyamıza dəvət edib, ondan kiçik bir müsahibə aldıq.

Bu günlərdə Universitet Tələbə Elmi Cəmiyyətinin sədri seçilmisən. Bununla bağlı fikirlərin bizim üçün də maraqlıdır.

- İlk öncə onu deyim ki, seçki martın doqquzunda keçirildi. Seçki 11 səsdən 8-i lehimə olmaqla mənim xeyrimə tamamlandı.

Əvəzaga, niyə məhz sənin namizədliyin irəli sürüldü. Səni tələbə yoldaşlarından fərqləndirən nə kimi üstünlüklərin var ki, bu seçkidə qalib oldun?

-Əvvəldə söylədiyim kimi 12 fakültədən 11 nəfər tələbənin namizədliyi irəli sürülmüşdü. Fakültə dekanları onların hər birinin nailiyyətlərini nəzərə alıb, tələbəlik illərində qazandıqları hər bir müvəffəqiyyəti incələyib bu addımı atmışlar.

Məsələn, bu müvəffəqiyyəti sənin timsalında görək.

-Maliyyə fakultəsinin 1-ci kursunda təhsil alarkən məqsədim "Sabah"qruplarına qəbul olmaq idi. Odur ki, gecəmi-gündüzümə qatıb 1-ci kursu yüksək göstəricilərlə başa vurdum. Sonra imtahan və müsahibə mərhələsindən uğurla keçib "Sabah" qruplarına qəbul oldum.

Bu gün mən 3-cü kursda təhsil alıram. Bu illər ərzində universitetimizin ictimai həyatında baş verən hər bir yenilikdə yaxından iştirak etmişəm. Eyni zamanda universitetdə keçirilən elmi konfranslarda iştirak edib, orada müxtəlif mövzulu məqalələrlə çıxış etmişəm. "Maliyyənin sosial iqtisadi inkişafda rolu", "Azərbaycanda sənayenin inkişaf tarixi" məqalələrim universitetdə çap edilən elmi konfransın tezisləri kitabında çap olunub.

Dəfələrlə beynəlxalq forumlarda, o cümlədən 2015-ci ilin avqust ayında BMT simulyasiyasında ölkəmizi təmsil etmişəm. İki ildən artıq bir müddətdə QHT ilə təcrübəm var, iki xarici dildə sərbəst danışıram.

Əvəzağa danışdıqca onun timsalında məndə ölkəmizin gələcəyinə layiqli bir mütəxəssisin, yaxud da dövlətimizi xaricdə təmsil edə biləcək bir dövlət xadiminin yetişəcəyinə əminlik yaranırdı.

Əvəzagadan tələbəlik illəri ilə baglı soruşduqda – heç düşünmədən "bu illərdə qazandığımız bilik bütün ömrümüz boyu həyat yolumuza işıq saçan bir mayak olacaqdır"-dedi.

UNEC "Əlilliyi olan şəxslərin Azərbaycan ali təhsil müəssisələrinə interqasiyasının təməlinin qoyulması" Tempus (ESFİDİP) adlı layihənin tərəfdaşıdır

Azərbaycan Dövlət İqtisad Universitetində fiziki qüsurları olan şəxslərin Azərbaycanın ali təhsil müəssisələrində imkanlarını yaxşılaşdırmaq məqsədi ilə "Əlilliyi olan şəxslərin Azərbaycan ali təhsil müəssisələrinə interqasiyasının təməlinin qoyulması" adlı layihə çərçivəsində "Əlilliyi olan tələbələr üçün mərkəz" yaradılmış və 29 iyun 2015-ci il tarixində universitetin Elmi Şurasında Mərkəzin "Əsasnaməsi" təsdiq olunmuşdur.

Fiziki qüsurları olan tələbələrin təhsil prosesində raslaşdıqları çətinlikləri aradan qaldırmaq və onlara dəstək göstərmək məqsədi ilə yaradılmış Mərkəzin əsas fəaliyyət istiqamətləri əlilliyi olan tələbələrin universitetin təhsil və xidmətlərindən bərabər hüquqlu istifadə etmələri üçün imkanları yaxşılaşdırmaq, universitetdə inklusiv təhsilin inkişafını, həyata keçirilməsini təmin etmək və bu məqsədlə maarifləndirmə və təbliğat işlərinin həyata keçirmək, eyni zamanda universitetin professor-müəllim heyəti ilə normal birgə əməkdaşlığı təmin etməkdən ibarətdir.

"Əlilliyi olan tələbələr üçün mərkəz"in əsasnaməsinə uyğun olaraq layihənin avropalı tərəfdaşları ilə birgə Mərkəzin gələcək fəaliyyət planı təsdiq olunmuş və qərara alınmışdır ki, yeni yaradılmış bu Mərkəzin fəaliyyətini əks etdirən bütün məlumatları ictimaiyyətin diqqətinə çatdırçaq üçün UNEC-in rəsmi internet səhifəsində ayrıca bölmə yaradılsın. Bu bölmə vasitəsi ilə elektron qaydada qeydiyyatdan keçən fiziki qüsurlu tələbələrə tədris proqramlarının təşkil edilməsi məqsədi ilə məsləhət saatları və ya tədris prosesində iştirak edəcək professor-müəllim heyəti ilə birgə təlimlərin təşkil olunması nəzərdə tutulmuşdur.

Eyni zamanda "Əlilliyi olan tələbələr üçün mərkəz" fiziki qüsurları olan tələbələr üçün dərs materiallarının müvafiq formata (Brayl əlifbası, audio format, surdo tərcümə) salınmasını və imtahanların xüsusi qaydada təşkil olunmasını təmin edəcəkdir. Tələbələrin universitetin sosial həyatına uyğunlaşması prosesində yarana biləcək psixoloji problemlərin aradan qaldırılması üçün Mərkəzə könüllü psixoloqların cəlb olunması da nəzərdə tutulmuşdur.

Layihə çərçivəsində 16 mart 2016-cı il tarixində UNEC-də əlilliyi olan tələbələrin tədris prosesində iştirak edən professor-müəllim heyəti üçün ilk seminar-təlim keçirilmişdir.

Çinin tarixi hələ qabaqdadır

(peşəkar diplomatla görüş)

16 mart tarixində Beynəlxalq münasibətlər kafedrasının əməkdaşları başda baş müəllim Anar Eyyubov olmaqla və BİM fakültəsi rəhbərliyinin dəstəyi ilə tarix elmləri doktoru, silahlı qüvvələr veteranı, 2010-2015-ci illərdə AR Çin Xalq Respublikasının səfirliyində hərbi attaşe vəzifəsində çalışmış, hazırda "Dərbənd" xeyriyyə cəmiyyəti sədrinin birinci müavini olan Nurulla Əliyevlə tələbələrin görüşünü təşkil etdilər.

Prezentasiyalı məruzəsində Nurulla müəllim Azərbaycan-Çin münasibətlərinə onların hərəsinin öz regionunda lider olmaları və regionların tarixi əlaqələri prizmasından yanaşdı. Maraqlı statistik rəqəmlər, tarixi paralellərlə zəngin olan natiqin çıxışında çin koloriti, özünəməxsusluğuna dair əhvalatlara geniş yer ayrılmışdı və bu sözsüz ki, tələbələrin daha da böyük diqqətinə səbəb oldu. Bəlkə məhz elə buna görə bir çox tədbirlərdə ənənəvi və standart suallar verən tələbələr bu dəfə doğrudan da maraqlı, mövzunun ayrı-ayrı tərəflərinə və məruzəyə diqqətlə qulaq asdıqlarını təsdiqləyən suallar verdilər və məruzəçidən də ətraflı, çin psixologiyası və fəlsəfi günyagörüşünü açıqlayan cavablar aldılar.

Tədbirin sonunda dekan, dos. Mənsur Bərxudarov, "Beynəlxalq münasibətlər" kafedrasının əməkdaşları Nurulla müəllimə maraqlı təqdimata görə təşəkkür etdilər, tələbələrin diplomatiya, beynəlxalq münasibətlər sahəsində bilik və vərdişlərinin gücləndirilməsi sahəsində əməkdaşlığın davam edəcəyinə əminliklərini ifadə etdilər.

Sabah qruplarında açıq dərs keçirildi

Martın 14-də universitetin böyük akt zalında "Sabah" qruplarının açıq dərsi oldu. Təhsil nazirliyinin xətti və "Sabah" fakültəsinin dekanı Aida Quliyevanın təşəbbüsü ilə keçirilən dərsin məruzəçisi Rusiya Təbii Elmlər Akademiyasının akademiki professor Eldar Şahbazov idi.

Məruzəçi auditoriyanı salamlayaraq nanotexnologiyalarının dünya iqtisadiyyatının inkişafında inqilabi bir proses olduğunu diqqətə çatdırdı. O ölkə ki, nanotexnologiyalarına sahib olacaq, o digər ölkələrə diktə edəcəkdir-deyərək nanotexnologiya termininin ilk dəfə olaraq 1974-cü ildə Norio Taniquti tərəfindən işlədildiyini, lakin ondan da əvvəl 1959-cu ildə Riçard Feynmanın özünün "Aşağıda yer çoxdur" adlı məqaləsində nanotexnoloji metodlar haqqında məlumat verdiyini bildirdi.

Natiq Feynmanın fikirlərini misaE.Şahbazov tələbələr qarşısındakı çıxışını davam etdirərək nanotexnologiyalarina bir qədər də geniş aspektdən yanaşaraq qeyd etdi ki, ötən yüzilliyin səksəninci illərinin sonlarında, bu tədqiqatlara kütləvi başlanılan ilk illərdə alimlər mikrometr səviyyəsində aparılan araşdırmalarda tətbiq edilən cihazların və texnologiyanın bu sahəyə tətbiq edilə biləcəyini bildirirdilər. Bu sahədə Azərbaycan alimlərinin də müəyyən qədər uğurları olduğunu diqqətə çatdıran Eldar Şahbazov alimlərimizin Milli Elmlər Akademiyasının Fizika İnstitutunun labaratoriyasında müəyyən tədqiqatlarla məşğul olduqlarından, irəli sürülən nəzəri təkliflərin təcrübədə araşdırılması bir qədər çətin olsa da, lakin keçən illərdə institutun kompüterləşdirilməsi, əldə edilən nəticələrin elektron variantının yaradılması nəticəsində müəyyən irəliləyişlərə nail olunduğundan bəhs etdi.

O qeyd etdi ki, 2004-cü ildə akademik Azad Mirzəcanzadənin rəhbərliyi ilə biz bu sahədə müəyyən eksperimentlər aparmağa başladıq. Köhnə yataqlarda neftin əmsalı getdikcə aşağı düşürdü. Neftin hasilatı azalırdı, odur ki, biz öncə nanotexnologiyalarını məhz bu yataqlara tətbiq etməyə başladıq. Və bunun da nəticəsində minlərlə ton artıq neft əldə edə bildik.

Bu gün artıq dünyanın əksər ölkələrində, yalnız neft sahəsində deyil, qeyri-neft sektorunun inkişafında və ümumiyyətlə iqtisadiyyatın bütün sahələrində nanotexnologiyalarına üz tutulur və onun çox böyük üstünlüklərindən bəhrələnirlər.

Tədbirdə nanotexnologiyanı əks etdirən videoçarx göstərildi və mövzu ətrafında maraqlı disskusiya oldu.

TƏBRİK EDİRİK!

Marta Həsənova-80

Nəzər salaq gələcəyə, keçmişə,
Bəxş edibdir hər yetənə bir peşə.
Böyük aqillər də deyib həmişə,
Ən yüksək, şərəfli addir müəllim

Martın 2-də UNEC-in fəxri professoru, "Müəssisənin iqtisadiyyatı" kafedrasının müəllimi Marta xanım Həsənovanın 80 yaşı tamam oldu.

Azərbaycan Dövlət Iqtisad Universitetinin "Müəssisənin iqtisadiyyatı" kafedrasının professoru Həsənova Marta Ağahüseyn qızı 1936-ci il martın 2-də Baki şəhərində, ziyalı ailəsində anadan olmuşdur. 1955-ci ildə M.Əzizbəyov adına Neft Kimya İnstitutunun "mühəndis – iqtisad" fakultəsinə daxil olmuş, 1960-ci ildə təhsilini başa çatdırmışdır.

Təyinat üzrə Azərbaycan Elmlər Akademiyasının İqtisadiyyat Institutuna gondərilmişdir. O, 1962-ci ildə Moskvada U.M.Qubkin adına Neft Kimya İnstitutunun aspiranturasına qəbul olmuşdur. Burada təhsilini bitirdikdən sonra 1966-ci ilin mart ayından etibarən Azərbaycan Elmlər Akademiyasının İqtisadiyyat institutunda kiçik elmi işçisi vəzifəsində çalışmış və 1968-ci ildə "Dərin qazma kəşfiyyatının iqtisadi səmərəliliyi" mövzusunda dissertasiya işini müvəffəqiyyətlə müdafiyə edərək, iqtisad elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür. Marta xanım Həsənova 1968-ci ilin oktyabr ayından D.Bunyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda(hazırki Azərbaycan Dövlət Iqtisad Universitetində) baş müəllim vəzifəsində fəaliyyətə başlamışdır. 1972-ci ildə dosent dərəcəsinə yüksəlmiş və 2011-ci ildə UNEC-in fəxri professoru adına layiq görülmüşdür.

48 illik bir müddət ərzində o öz tədris-pedaqoji fəaliyyətini və elmi araşdırmalarını davam etdirmişdir. 70-dən artıq elmi məqalələrin və elmi-metodik vəsaitlərin, o cümlədən "Bazar İqtisadiyyatı şəraitində istehsalın təşkili formaları" adlı dərs vəsaitinin müəllifi olmuşdur.

Marta müəllimənin həyat yolu tədrisə, elmə təmənnasız, bütün varlığı ilə xidmətin ən gözəl nümunəsidir. Kafedrada çalışdığı illər ərzində həmkarları, alim yoldaşları, universitet əməkdaşlarının böyük hörmətini, eyni zamanda tələbələrin sevgisini və rəğbətini qazanmışdır.

"Müəssisənin iqtisadiyyatı " kafedrasının kollektivi adından Marta xanımı yübileyi münasibətilə ürəkdən təbrik edirik, ona uzun ömür, can sağlığı və xoş əhvali-ruhiyyə arzulayırıq.

YAXŞI DOST, BACARIQLI ALİM VƏ TƏŞKİLATÇI!

Rafiq Bəşirov-75

Rafiq müəllimi 60 ilə yaxındır ki, tanıyıram. Bizim tanışlığımız 1957-ci ilin sentyabr ayından başlamışdır. Hər ikimiz o vaxtkı K.Marks adına Xalq Təsərrüfatı İnstitutunun «Maliyyə-kredit» fakultəsinə daxil olub 1962-ci ildə Azərbaycan Dövlət Universitetini müvəffəqiyyətlə bitirdik. Böyük Vətən müharibəsi illərinin uşaqları kimi hər ikimiz ata qayğısından məhrum, ana himayəsində, çoxsaylı problemlərlə qarşılaşmışıq. Buna baxmayaraq Rafiq müəllim Universiteti bitirdikdən sonra təyinatla Dövlət Bankının Quba rayon şöbəsinə kredit inspektoru vəzifəsinə işə göndərilmişdir. Gənc mütəxəssis özünü bacarıqlı işçi kimi göstərə bilmiş və 1963-cü ilin dekabr ayında Dövlət Bankının Bakı şəhər idarəsinə işə köçürülmüşdür.

Rafiq müəllim bu illərdə həm rəhbərliyin, həm kollektivin, eləcə də bank müştərilərinin hörmətini qazanmış, özünü bacarıqlı mütəxəssis kimi göstərmişdir. Elmi yaradıcılığa və elmə olan həvəsi onun 1966-cı ildə Xalq Təsərrüfatı İnstitutunun «Maliyyə-kredit» kafedrasına müəllim vəzifəsinə dəvət olunmasına səbəb olmuşdur.

Tələbəlik illərində elmi fəaliyyətə marağı tələbə elmi cəmiyyətlərində iştirakı, maraqlı çıxışları həmkarları tərəfindən reallıqla qarşılanmışdır.

Rafiq müəllim 1973-cü ildə namizədlik dissertasiyasını müdafiə edərək elmlər namizədi, 1979-cu ildən dosent vəzifəsinə layiq görülmüşdür.

Rafiq müəllim 1969-2010-cu ilədək maliyyə fakultəsində dekan müavini, dekan, kafedra müdiri kimi fəaliyyət göstərmişdir. Bütün bunlar Rafiq müəllimin bacarıqlı təşkilatçı olduğuna əyani subutdur.

Rafiq müəllim həm də yaxşı alimdir. Onun hələ 1973-cü ildə «Əhalinin pul əmanətləri» mövzusunda yazdığı namizədlik dissertasiyası bu gün də aktualdır.

Rafiq müəllim tələbə və professor-müəllim heyətinin böyük etimadını qazanmışdır. Təsadüfi deyildir ki, o 1974-cü ildən dekan müavini, dekan, kafedra müdiri vəzifəsində 40 ilə yaxın çalışmışdır. Həmin illərdə Rafiq müəllim universitetin ictimai işlərində də fəal iştirak etmişdir. O, müxtəlif illərdə respublikanın rayonlarında və Şərqi Avropa ölkələrində (Polşa) tələbə inşaat dəstəsinə rəhbərlik etmişdir.

Rafiq müəllim 60-a yaxın elmi məqalə yazmış, çoxsaylı dərslik, dərs vəsaiti, proqram və metodiki göstərişlərin yazılmasında iştirak etmişdir.

Rafiq müəllim Moskva, Kiyev, Ternonol və digər şəhərlərdə elmi konfranslarda müvafiq materiallarla çıxış etmiş, müxtəlif jurnallarda elmi məqalələr çap etdirmişdir.

2011-ci ildə Rafiq müəllimə Prezidentin sərəncamı ilə «Əməkdar müəllim» fəxri adı verilmişdir.

Anadan olmasının 75, elmi-pedoqoji fəaliyyətinin 40 illiyi münasibətilə Rafiq müəllimi təbrik edir, ona möhkəm can sağlığı və pedoqoji fəaliyyətində bundan sonra da müvəffəqiyyətlər arzu edirəm.

«Bank işi» kafedrasının dosenti,
tələbə yoldaşı Qəmbər Əliyev

UNEC Azərbaycanın və dünyanın tanınmış iqtisadçılarını bir platformada toplayacaq

Diskurs.Az
Virtual İqtisadi Forum

Azərbaycan Dövlət Iqtisad Universitetində yeni layihə olan "diskurs.az" iqtisadi forumu layihəsinə start verilib. Azərbaycanın və dünyanın iqtisadçı alim və praktiklərinin bir araya gələcəyi layihənin əsas məqsədi ən aktual iqtisadi məsələlərin müzakirəsini təşkil etməkdən ibarətdir.

Virtual platforma olan "diskurs.az" iqtisadiyyata aid materialların qiymətləndirilərək yerləşdiriləcəyi və sosial şəbəkələrə çıxışı olan bir məkan olacaqdır. Geniş ictimaiyyət üçün hədəflənmiş bu virtual iqtisadi forumda müxtəlif iqtisadi məsələlərlə bağlı ekspert rəyləri, iqtisadi proqnozlar və peşəkar iqtisadi təkliflər də yer alacaqdır. Bununla yanaşı hər bir istifadəçiyə öz maraqlarına uyğun olaraq əlavə rubrika və bölmələrin də yaradılmasına imkan veriləcəkdir.

"Diskurs.az" virtual iqtisadi platformasının istifadəçiləri asanlıqla aktual iqtisadi və biznes məsələlərini tanınmış yerli və xarici iqtisadi ekspertlərlə müzakirə edə biləcəklər. Unikal bir intellektual məkan olması gözlənilən "diskurs.az" UNEC-in iqtisadi məsələlərlə bağlı ictimaiyyətlə ekspertlər arasında körpü rolunu oynayacaq mühüm layihələrindən biridir.

Azərbaycan Dövlət İqtisad Universiteti iqtisadçıları "diskurs.az" virtual iqtisadi forumun işində iştirak edərək iqtisadi proseslərlə bağlı öz fikirlərini ictimaiyyətlə bölüşməyə dəvət edir.

Elanlar

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Misirova Türkan İlyas qızına verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Abbaslı Təhminə Azər qızına verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Qasımova İlahə Rəhman qızına verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Niftullayev Məqsəd Vidadi oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Qurbanova Sevil Elbrus qızına verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Əliyev Arif Nail oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən İbrahimov Tahir Azər oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Şahbazlı Bahar Əlisa oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Rzazadə Nicat Aslan oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Paşayeva Nigar Mənsur qızına verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Quliyev Fərid Sahib oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Əlizadə Nərmin Fəyux qızına verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Rzayeva Səbinə Əsəd qızına verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Həkəriyyəyev Fəzail Natiq oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Ağamirzəlı Şövqü Dövlət oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Məmmədli Asiman Vidadi oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Qurbanova Nərmin Etibar qızına verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Kazımlı Ülvi Elçin oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Vəlizadə Nəsimi Azad oğluna verilən tələbə bileti və qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Əhmədova Nəcimə Ceyhun qızına verilən tələbə bileti və qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Hüseynova Günel Telman qızına verilən tələbə bileti və qiymət üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən İbrahimov Cavid İbrahim oğluna verilən tələbə bileti və qiymət üçün etibarsız sayılır.

Baş redaktor: Anar Eyyubov
redaktor-korrektor
Xatın Qocayeva

Müxbir-İlahəxanım Həsənova
Səhifələyici-Turan Cavadova
Fotomüxbir R.Məmmədov, K. Cəlilov

Telefon: 4926819
Ünvan: Bakı 370001
İstiqlaliyyət küçəsi 6.

Lisenziya259
Sifariş 1673
Sayı 200